**Əli Zahir oğlu SÜLEYMANZADƏ**
*Qərbi Kaspi Universiteti*
E-mail: suleymanzade-92@mail.ru

**Pərviz Ə. QURBANOV i.ü.f.d.,**

# İSVEÇRƏ VƏ İSPANİYANIN VERGİ SİSTEMLƏRİNİN MÜQAYİSƏLİ ANALİZİ

**Xülasə:** Məqalədə İsveçrə və İspaniyanın vergi sistemləri və vergitutmanın təşkili xüsusiyyətləri tədqiq edilib. Bu ölkələrin vergi sistemlərinin xüsusiyyətləri analiz edilib və vergitutmanın əsas problemləri müəyyən edilib.
**Açar sözlər:** vergilər, vergi dərəcələri, vergi sistemi, İspaniya, İsveçrə.

**UOT:** 336.02

**JEL:** H10

**DOI:** doi.org/10.54414/cgvi5222

## Giriş

Bu tədqiqat işinin mövzusunun aktuallığı hər bir dövlətin iqtisadiyyatının inkişafında vergi sisteminin əhəmiyyətli rola malik olması ilə əlaqədardır, çünki vergi sistemi büdcəyə və məqsədli dövlət fondlarına daxil olan vergilərin, yığımların və digər vacib ödənişlərin qanunvericiliklə müəyyən edilmiş qaydada qüvvədə olan miqdarını müəyyən edir. Dünyanın heç bir ölkəsində ideal vergi sistemi mövcud deyil, çünki hər bir ölkənin vergi sistemi özünəməxsus üstün və çatışmayan cəhətlərə malikdir. Hər bir ölkənin vətəndaşları vergi ödəmə öhdəliklərindən narazıdırlar, lakin vergi mexanizminin mövcud olmadığı halda ölkənin fəaliyyət göstərməsi mümkün olmadığından, ölkə elə bir vergi şərtləri yaratmalıdır ki, bu şərtlər əhalinin rifahına mənfi təsir göstərməsin. Vergilər sosial ədalətə və iqtisadi inkişafa nail olmaq məqsədilə hüquqi və fiziki şəxslərin gəlirlərini bərabərləşdirir. Nəzəriyyəçilər və praktiklər elə bir vergi sisteminin qurulması məsələsi üzərində çalışırlar ki, bu sistem biznes üçün optimal rəqabət mühitini təmin edər və eyni zamanda effektiv fiskal alət kimi çıxış edərdi.

## İsveçrə və İspaniyanın vergi sistemləri

Hər bir ölkə müxtəlif iqtisadi yollarla hərəkət edir və iqtisadi inkişafda, iqtisadi proseslərin inkişaf dinamikasında özünəməxsus xüsusiyyətlərə malikdir və bu xüsusiyyətlər ümumi iqtisadi sistemin ayrı-ayrı tərkib hissələrinə, həmçinin ölkənin vergi sisteminə təsir edir və cəmiyyətdə baş verən dəyişikliklərə daim uyğunlaşmalıdır.

Vergilər istənilən ölkənin büdcəsinin doldurulmasının əsas mənbəyi olduğundan, onun gəlir hissəsində böyük paya malikdir. Dünyanın bütün ölkələrində dövlət xərcləri gəlirlərdən, yəni toplanmış vergilərin miqdarından irəli gələrək planlaşdırılır. Əgər planlaşdırma zamanı büdcə kəsiri yaranırsa, hökumət yeni vergilərin, mütləq ödəniş və yığımların təsis edilməsi zamanı ilk öncə əhali və sahibkarlar üçün mümkün neqativ nəticələri öncədən görməlidir.

Dünyanın inkişaf etmiş ölkələrində vergi yığımları ölkənin ümumdaxili məhsulunun 25%-dən 50%-ə qədər olan hissəsini təşkil edirlər.

Dünyanın müxtəlif ölkələrində vergi sistemlərinin qurulmasında əsas diqqət sahibkarlıq fəaliyyətinin inkişafına və istər ölkədaxili, istərsə də ölkəxarici investisiya vəsaitlərinin cəlb edilməsinə yönləndirilir. Bunun üçün ölkədə bu növ fəaliyyətlərin stimullaşdırılması üçün şərait yaradılır. Bir çox ölkələrdə imtiyazların əhəmiyyətli hissəsi öz məhsulunu ixrac edən (onu da qeyd etmək lazımdır ki, bir çox ölkələr ikiqat vergitutmanın qarşısını almaq üçün öz aralarında sazişlər bağlayırlar) müəssisələrə verilir.

Bu və ya digər vergilər sözsüz ki, Avropa İttifaqı üzv ölkələrinin vergi sistemlərində vacib rol oynayırlar, lakin bununla yanaşı vergilərin toplanılmasına və vergi qanunvericiliyinə riayət edilməsinə nəzarət anlayışı mövcuddur. Bu prosesi bir sıra Avropa ölkələrinin misalında izləmək maraqlı olar. Vergi sistemi o halda

effektiv hesab edilir ki, bu sistem iqtisadi siyasəti yaratmağa imkan verən yaxşı qurulmuş hüquq sisteminə əsaslansın. Vergi sisteminin təşkilinin uğurlu misallarından biri yüksək inkişaf etmiş ölkələrdən biri sayılan İsveçrənin təcrübəsi ola bilər [5, s. 75].

İsveçrənin vergitutma sistemi barədə danışdıqda, vurğulamalıyıq ki, bu sistem ölkənin federal quruluşuna əsaslanır. Özlüyündə İsveçrə Konfederasiyası mərkəzi aparat, 26 kanton (əyalət) və bu kantonlara daxil olan çoxlu sayda bələdiyyələrdən ibarətdir. Buna əsaslanaraq deyə bilərik ki, burada vergitutma ikisəviyyəli sistemə əsaslanır: mərkəzi və kantonal (icma).

İsveçrənin vergi sistemi, bu ölkəni digər ölkələrdən fərqləndirən özünəməxsus xüsusiyyətlərə malikdir. İlk öncə bu xüsusiyyətlərdən biri – vergilərə münasibətdə kantonların (ərazi vahidlərinin) müstəqilliyidir. Bu müstəqillik həmçinin özünü vergi qanunvericiliyinin yaradılması hüququnda göstərir. Lakin bu hüquq federal hökümət və ya beynəlxalq sazişlərlə məhdudlaşdırıla bilər. Digər xüsusiyyət - kantonlar arasında rəqabətdir, çünki onların hər biri müstəqil olaraq həmin ərazidə qüvvədə olan vergi dərəcələrini müəyyən edirlər. Əgər hər hansı kantonda vergi dərəcələri artarsa, bu zaman bir tərəfdən həmin kanton daha çox pul gəliri əldə edir, digər tərəfdən isə vergilərin yüksək olması həmin kantonun əhalisinin yaşayış baxımından daha əlverişli kantona köçməsinə səbəb olur. Müxtəlif kantonların vergi sistemləri arasında rəqabətin mövcud olması, bütün İsveçrə ərazisində vergi dərəcələrini aşağı səviyyədə saxlamaq üçün effektiv vasitə hesab edilir. Kantonlar arasında ən aşağı korporativ vergi dərəcəsi 12,4%, ən yüksək isə - 24,2% təşkil edir. Bundan əlavə vergi prosesinin bütün iştirakçıları müstəqil olaraq qanunlara müvafiq şəkildə özləri üçün vergilərin ödənilməsi baxımından əlverişli fəaliyyət istiqamətini seçə bilərlər. Misal üçün fiziki şəxslərin gəlir vergisinin ödənilməsi işəgötürən tərəfindən həyata keçirilmir. Fiziki şəxs özü müstəqil olaraq bu vergini ilin sonunda ödəyir. Bu verginin dərəcəsi artan istiqamətdə dəyişir – 1%-dən 13%-ə qədər, bu dərəcə isə gəlirlərin səviyyəsindən və ailə vəziyyətindən asılıdır [3, s. 7].

Bundan əlavə daha bir inkişaf etmiş ölkənin - İspaniyanın təcrübəsinə nəzər yetirək.

İspaniyada fiskal sistemin əsas vəzifəsi – burada yeni iş yerləri yaradacaq və vergilərdən gətirlərin əldə edilməsinə töhvə verəcək investorlar üçün ölkənin iqtisadi cəlbediciliyini balanslaşdırmaq. Bu məqsədlə ispan höküməti aktiv olaraq ikiqat vergitutmanın qarşısını almaq üçün digər ölkələrlə sazişlər bağlayır.

İspaniya – Avropa ölkələri içərisində xarici fərdi ev və mənzillərin alıcıları arasında ən məhşur ölkələrdəndir.

Hər il Ispan və xarici ev sahibləri daşınmaz əmlak və gəlir vergilərini ödəyirlər. İnvestorlar həmçinin icarədən əldə edilən gəlirə və kapitalın artımına görə vergi ödəyirlər. Şirkət sahibləri gəlirlərinin 1/4 hissəsini korporativ vergi olaraq ödəyirlər [8, s. 35].

Bununla yanaşı İspaniyanın vergi sistemi rezident statusunu ala bilənlər üçün çoxlu sayda imtiyazlar və dərəcələrin aşağı düşməsini nəzərdə tutur.

İspaniya 56 əyaləti əhatə edən 17 muxtar əraziyə bölünür. Bütün muxtar ərazilərin statusları eyni deyil. Bunlardan ikisi – Navarra və Basklar Ölkəsi – vergitutma sahəsini də əhatə etməklə digərlərinə nisbətən daha böyük muxtariyyətə sahibdirlər. Bu əyalətlər müxtəlif növ regional və yerli vergiləri təsis etmək hüququndan istifadə edirlər. Həmçinin Navarra və Basklar Ölkəsi qanunvericiliklə müəyyən edilmiş faiz dərəcəsində federal büdcəyə daxil olan federal vergiləri toplayırlar. Bu regionların ardınca Kataloniya da daxil olur, vergi dərəcələrini tənzimləmək səlahiyyətinə malik olan regionlar qrupu gəlir. Üçüncü regionlar qrupu müstəqil vergi siyasətini həyata keçirmək hüququna malik deyillər. Bu qrupa daxil olan regionlar vergitutma sahəsində qəbul edilən federal qanunlara ciddi şəkildə riayət edirlər [8, s. 86].

Avropa ölkələrinin vergitutma sistemləri arasında aşağı faiz dərəcələri ilə seçilən ən optimal sistemlərdən biri İsveçrədə mövcud olan vergitutma sistemidir. Diqqəti cəlb edən amil budur ki, federal büdcəyə vergilərin az hissəsi daxil olur, vergilərin çox hissəsi əsasən biznesin qeydiyyatda olduğu kantonlara (regionlara) istiqamətlənir. Bu kantonların hər birində müxtəlif vergi dərəcələri tətbiq edilir.

Son illərdə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzv ölkələri İsveçrəyə müəyyən təzyiq göstərirlər. Xüsusilə, beynəlxalq səviyyədə şəffaf vergi siyasətini həyata keçirməyi

çətinləşdirən bank sirrinə aid olan qanunlara yenidən nəzər yetirilməsini istəyirlər. Xaricilərin depozitlərinə vergi tətbiq edilməsi mövzusu da İsveçrədə gündəmdə olan mövzulardandır.

İsveçrədə vergilərin dərəcələrinə gəldikdə isə, hər üç səviyyədə - federal, kantonal, bələdiyyə - müxtəlif dərəcələrdir. Əsasən artan vergitutma sistemi tətbiq edilir. Daha yüksək vergilər böyük kantonlarda – Cenevre və Sürix, Bern, daha aşağı isə - Obvalden, Şviç əyalətlərində toplanır.

İspaniyada vergitutma üç səviyyədə həyata keçirilir: [2, s. 2]

- dövlət səviyyəsində: gəlir vergisi, mənfəət vergisi, ƏDV;
- regional səviyyədə: əyalətlər səviyyəsində - mülkiyyət hüququnun keçməsi ilə bağlı gerb vergisi;
- bələdiyyə səviyyəsində: daşınmaz əmlaka sahib olmaq hüququna vergi, zibilin daşınması vergisi, nəqliyyat vasitəsinə sahib olma vergisi və s. yerli vergilər.

Vergiləri təsis edən ən üst orqan – Parlamentdir, vergi sistemini idarə edən ən üst orqan isə - İqtisadiyyat və maliyyə nazirliyidir.

Vergilərin yığılmasını birbaşa olaraq Vergi xidmətinin dövlət agentliyi həyata keçirir. Agentliyin baş idarəsi Madriddə, regional idarələri isə hər bir əyalətin paytaxtında yerləşir. Vergi xidmətinin ayrı-ayrı departamentləri birbaşa və dolayı vergilərin toplanmasını idarə edirlər. İspaniyanın Vergi xidmətinin dövlət agentliyi öz məlumat mərkəzi vasitəsilə vergi ödəyicilərinin uçotu və qeydiyyatı məsələsini uğurla həll etməyi bacardı. Hər bir fiziki və hüquqi şəxs öz indentifikasiya nömrəsinə sahibdir. Hüquqi şəxsə bu nömrə yeni şirkətin qeydiyyatını həyata keçirəndə verilir. Fiziki şəxslərin uçotu üçün isə Daxili Işlər Nazirliynin identifikasiya nömrələri istifadə edilir. Ölkənin vergi odəyiciləri barədə bütün məlumatlar Madriddəki vergi xidmətinin kompüter sistemində yerləşir [6, s. 82].

Kifayət qədər mürəkkəb vergitutma sisteminə baxmayaraq, İsveçrədə toplanan bütün vergilərin orta dərəcə göstəricisi 25%-dən çox deyil. Bununla yanaşı İsveçrə qanunvericiliyi ilə bəzi müəssisələr üçün verginin faizini azaltmağa qadir olan bir sıra vergi imtiyazları nəzərdə tutulub.

İsveçrədə vergilərin müəyyən edilməsi iki müxtəlif prinsipə əsaslanır: [6, s. 84]

1) nəticəyə bağlı vergitutma – verginin hesablanması vergi dövrünün sonunda baş tutur (əsasən müəssisələr üçün);
2) təqribi vergitutma – verginin hesablanması bir və ya iki illik vergi dövrünün bitməsindən qabaq, bundan əvvəlki bir və ya iki illik dövrdə əldə edilmiş gəlir əsasında hesablanır (əsasən fiziki şəxslər üçün).

**Cədvəl 1.**

**İsveçrədə toplanan əsas vergi növlərinin faiz dərəcələri**

| № | Verginin növü | Faiz dərəcəsi |
|---|---|---|
| 1 | ƏDV | 8 |
| 2 | Korporasiyaların gəlirlərinə federal vergi | 3.39-9.80 |
| 3 | Səhmdar kapitalına federal vergi | 0.825 |
| 4 | Dövriyyədən federal vergi | 6.2-9.3 |
| 5 | Korporasiyaların gəlirlərinə kantonal vergi | 3.5-10 |
| 6 | Səhmdar kapitalına kantonal vergi | ~ 1.5 |
| 7 | Kommunal vergilər | 90-140 |
| 8 | Sosial təminata ödəmələr | 10.7 |
| 9 | Aksizlər | - |
| 10 | Gerb yığımı | 0.1-3 |

**Mənbə:** Тьонц Л., Роос Н. Реформа Швейцарского налога у источника: международные аспекты // Налоговед, 2021, №12, с. 83

Cədvəl 1-də İsveçrədə toplanan əsas vergi növlərinin faiz dərəcələri göstərilib.

İsveçrənin federal büdcəsinə daxil olan vergi gəlirlərinə nəzər yetirərək, müxtəlif vergi növləri üzrə gəlir faizini diaqram şəklində göstərək (Diaqram 1).

**Diaqram 1.**

**İsveçrə federal büdcəsinə vergi gəlirlərinin daxil olması strukturu**




**Mənbə:** Тьонц Л., Роос Н. Реформа Швейцарского налога у источника: международные аспекты // Налоговед, 2021, №12, с. 86

**Cədvəl 2.**

**İspaniyada vergi dərəcələri**

| № | Verginin növü | Faiz dərəcəsi |
|---|---|---|
| **1** | ƏDV | 10-21 |
| **2** | Mülkiyyət hüququnun ötürülməsi vergisi | 6-7 |
| **3** | Əmlak vergisi (əmlakın dəyəri 700 min avrodan yuxarı) | 0.2-2.5 |
| **4** | Kapital artımı vergisi | 21 |
| **5** | Miras vergisi | 7.65-34 |
| **6** | Gəlir vergisi | 15-45 |
| **7** | Korporativ vergi | 35 |
| **8** | Daşınmaz əmlakdan gəlir vergisi (əgər daşınmaz əmlak icarəyə verilirsə) | 24.75 |
| **9** | Daşınmaz əmlakdan gəlir vergisi (əgər daşınmaz əmlak icarəyə verilmirsə) | 2% və ya obyektin kadastr dəyərindən 1.1% |

**Mənbə:** Деменьтева Н.А. Особенности правового регулирования налогообложения в Испании. Москва: Юрист, 2018, с. 107

İspaniyanın federal büdcəsinə daxil olan vergi gəlirlərinə nəzər yetirərək, müxtəlif vergi növləri üzrə gəlir faizini diaqram şəklində göstərək (Diaqram 2).

**Diaqram 2.**

**İspaniya federal büdcəsinə vergi gəlirlərinin daxil olması strukturu**




**Mənbə:** Деменьтева Н.А. Особенности правового регулирования налогообложения в Испании. Москва: Юрист, 2018, с. 115

ƏDV (İVA), fiziki və hüquqi şəxslərin gəlirləri (İRPF), həmçinin kommersiya təşkilatlarının fəaliyyəti ilə bağlı vergilər (İS) dövlət səviyyəsində toplanılır.

Mülkiyyət hüququnun ötürülməsi vergisi (İTP), sənədləşdirilmiş hüquqi aktlar vergisi (AJD), iqtisadi əməliyyatlar vergisi (OS) regional səviyyədə toplanırlar. Yerli hakimiyyət orqanları isə nəqliyyat vasitələri vergisinin (İVTM), iqtisadi fəaliyyət vergisinin (İAE), fiziki şəxslərdən toplanan daşınmaz əmlak yığımının (İBİ), şəhər torpaqlarının dəyərinin artması vergisinin (İİVTNU) və tikinti və mühəndis işləri vergisinin (İCİO) toplanılmasını həyata keçirir.

**Nəticə**

Beləliklə, bir sıra Avropa ölkələrinin vergi sistemləri həm oxşar, həmdə fərqli xüsusiyyətlərə malikdir. İsveçrənin vergi sistemi ilk görünüşdən köhnə sistem olsa da, ancaq çox effektiv sistem hesab edilir. Ticarət və sənayenin inkişafı məhs mövcud vergi sisteminin sayəsində yüksək inkişafa nail olub.

Yerli vergitutmanın islahatlarının həyata keçirilməsi zamanı İsveçrənin təcrübəsindən istifadə etmək məqsədəuyğun hesab edilir. Ölkədə cərimələr və sanksiyalar sistemi, ictimai fikir elə formalaşmalıdır ki, vergilərin ödənilməməsi və ya vaxtında ödənilməməsi ödəyici üçün büdcə qarşısında öhdəliyinin vaxtında və düzgün yerinə yetirilməsindən daha az sərfəli olsun.

Bu gün İspaniyanın vergiləri Avropa Birliyinin bütün tələblərinə uyğun gəlir. Sistem ən yüksək səviyyədə qüsursuz işləyir. Əsasən yaxşı texniki dəstəyə görə ödənişlərlə bağlı heç bir problem yaranmır. Fiskal xidmətə məlumat bir neçə mənbədən daxil olur və vergidən yayınmağa çalışan vətəndaşları tez bir zamanda müəyyən etməyə imkan verir və saxtakarlıq ehtimalını aradan qaldırır.

İspaniyada vergilər Parlament tərəfindən müəyyən edilir, müvafiq xidmətin işini Maliyyə Nazirliyi tənzimləyir. Vergi ödəyiciləri barədə bütün məlumatlar Madriddə Vergi Agentliyinin bazasında saxlanılır.

**ƏDƏBİYYAT SİYAHISI:**

1. Князев В.Г., Черник Д.Г. Налоговые системы зарубежных стран. Москва: Юнити, 2011, 148 с.
2. Муратова К.Р. Налоговая система Испании // IX международная научно-практическая конференция «Современные тенденции и инновации в науке и производстве», 2020, с. 1-4
3. Пенцов Д.А. Налоговые преимущества от использования швейцарских компаний в международной коммерческой деятельности // Закон, 2009, №8, с. 1-14
4. Лыкова Л.Н., Букина И.С. Налоговые системы зарубежных стран. Москва: Юрайт, 2014, 151 с.
5. Килинкарова Е.В. Налоговое право зарубежных стран: учебник для бакалавриата и магистратуры. Москва: Юрайт, 2015, 354 с.
6. Тьонц Л., Роос Н. Реформа швейцарского налога у источника: международные аспекты // Налоговед, 2021, №12, с. 80-87
7. Грачева Е.Ю., Ивлиева М.Ф., Соколова Э.Д. Налоговое право: учебник. Москва: Юрист, 2015, 223 с.
8. Деменьтева Н.А. Особенности правового регулирования налогообложения в Испании. Москва: Юрист, 2018, 217 с.

**Али Захир оглы СУЛЕЙМАНЗАДЕ**
*Западно-Каспийский Университет*
E-mail: suleymanzade-92@mail.ru

**ПАРВИЗ А. КУРБАНОВ к.э.н.**

## СРАВНИТЕЛЬНЫЙ АНАЛИЗ НАЛОГОВЫХ СИСТЕМ ШВЕЙЦАРИИ И ИСПАНИИ

**Резюме:** В статье были исследованы налоговые системы и организация налогообложения в Швейцарии и Испании. Были проанализированы особенности налоговых систем этих стран и выявлены основные проблемы налогообложения.

**Ключевые слова:** налоги, налоговые ставки, налоговая система, Испания, Швейцария.

**Ali Zahir SULEYMANZADEH**
*Western Caspian University*
E-mail: suleymanzade-92@mail.ru

**PARVIZ A. GURBANOV** PhD in Economics

## COMPARATIVE ANALYSIS OF THE TAX SYSTEMS OF SWITZERLAND AND SPAIN

**Summary:** The article examines the tax systems and organization of taxation in Switzerland and Spain. The features of the tax systems of these countries were analyzed and the main problems of taxation were identified.
**Key words:** taxes, tax rates, tax system, Spain, Switzerland.

**Daxil olub:** 02.02.2022